**Bu gün azərbaycanlı şair, satiranın ustadı, ictimai xadim Mirzə Ələkbər Sabirin anadan olmasından 157 il ötür. Bu şeirimi Mirzə Ələkbər Sabirin əziz xatirəsinə həsr edirəm. "Çuvalduzun Həqiqəti" şeirimi Mirzə Ələkbər Sabirin xəstə vaxtı yazdığı şeirindən bir parça ilə sonlandırmışam.**

Mən yazmışdım ona əvvəl,
"Fars dilini öyrət"- deyə.
Mən yazmışdım ona əvvəl,
"Yurdunda bir Qeyrət"- deyə.
Dedim, yeni şeir yazım,
Sabir böyük manifestdir.
Yaz, yaz, həm də ki araşdır,
Bu manifesti xalqa çatdır.
Yazıram indi mən ona...

Doğulmuşdu bu cahanda,
157 il əvvəl,



Oskar çəkdi, Sabir yazdı,
"Hophop" uçdu, Cəlil çıxardı,
Molla baxdı,
Hirsi təpəsindən aşdı,
Hirsləndi o, Sabirlərə,
"Düşmən onlar, Ağ adamlar.
Dedikləri, Ağ Yalanlar."
Kim deyir o ağ yalanı,
Siz mollalar!
Sabir yazı da yazırdı,
Onun "Meydana çıkıyor"
Adlı bir əsəri vardı.
Elə də bilməzlər onu,
Lakin bilən vardır bunu.
Aralıqda ötən duran,
Hop-hop quşun,
Tək Tanıdan Sabir idi.
Sabir yazsın,
"Hop-hop"uçsun,
Adı "Hop-hopnamə" olsun.
Sabir həm də öyrədirdi,
Ümid məktəbi tikirdi.
Var idi onun ümidi Gələcəyə,
Yazılacaq tarixlərə,
Azərbaycan ölkəsinə.
Sonra bir qəzetdə yazdı,
Qəzet "Həqiqət" qəzeti,
Ləqəbi Çuvalduz idi.
Satira meydanda idi.
Sabir sınmır, heç qorxmurdu,
Çuvalduz sözü bitmirdi.
Birdən Sabir xəstələndi,
Ciyər sağlamlığı bitdi.
Cəlilin evində idi,
Baxırdılar ona yaxşı,
Vardı bir narahatlığı.
Ona lazımdı söz, şeir,
Görən, camaat nə deyir?
Birdən Böyük Həyat bitdi,

*Mirzə Ələkbər Sabirin 157 illiyinə*

# "ÇUVALDUZUN HƏQİQƏTİ"

Düz bu günü.
Allah dedi: "Gəl,Sabir, gəl,öyrət tək sən,
Təhsilsizlərə təhsili,
Qeyrətsizlərə qeyrəti,
Qeyrətsizə de: "Qeyrətsiz",
Qeyrətliyə "Qeyrətsiniz!"".
Yazdı o, ilk şeirini,
Oruc tutdu Ramazanda,
Yemək yemədi qazanda!
Atası ona hirsləndi,
Sonra bir varidat olan,
Şeir dəftərini cırdı.
"Lazım deyil əşar-məşar, Şeir-meir.
Məzhəbinə sən sal meyil!"
Sabir sınmayan heykəldi,
Heç sınmadı.
Yazdı, yazdı, dayanmadı.
Tərcümələr də elədi,
İlk tərcümə Sədidəndi.
Şirvanidən çox dil bildi,
Fars ilə ərəb dilini,
Söz dili, şeir dilini,
Sədi, Hafiz, Nizamini, Füzulini.
Gəzdi bütün ölkələri,
Asiyanı və İranı.
Dayanmadı.
Axı Heykəl,
Satira heykəli idi!
Yazmalıydı çox şeylərdən.
Biri "Molla Nəsrəddin"dən,
Yazdı,verdi Mirzə Cəlilə,
Demədi o, öz adını.
Kim biləcək, ya bəyənər,
Ya da cırıb atacaqdı?!
Cəlil oxudu, bəyəndi,
Sonra dedi: "Onda satira güclüdür,
Gəlsin o,redaksiyaya.
Yazsın,satira yayılsın,
Qafqaza və Asiyaya."
Sabiri qəbul etdilər,
Dedilər, sən yaz və yarat.
Səndən çoxlu danışacaq,
Dost Türklər, Düşmən ararat.
Belə oldu Nəsrəddində,

Sabir bu dünyadan getdi.
Cismi şəkildə o, getdi,
Axı onun var heykəli!?
Sabir böyük bir heykəldi,
Sazın, Sözün, Satiranın heykəliydi.
Heykəltəraş tikməmişdi,
Xalqın tikdiyi heykəldi.
Həm o bağda,
Həm də ki Ürək Dağında.
Sabirin o yazdıqları
Hamısı bir varidatdı.
Atasının cırdığı da,
Xəstə vaxtı yazdığı da:
"Arizi-qəmlər əlindən ki,
başım şişmiş idi,
Zənn edərdim ona, bəlkə,
edə çarə ciyərim;
Bəxti-mənhusimi gör,
mən bu təmənnadə ikən
Başladı şişməyə imdi
üzü qarə ciyərim."



Nəsiboğlu, Sevindik

*29.05.2019*

Kredo 2020.- 6 fevral.- S.14.